# Bakı Forumu obyektiv müzakirə platformasıdır



***Bakıda keçirilən və dünya mediasının əsas xəbər manşetlərindən birinə çevrilən IX Qlobal Bakı Forumu öz əhəmiyyəti ilə beynəlxalq aləmin diqqət mərkəzində oldu. Cənab Prezidentin himayəsi və dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan Beynəlxalq Mərkəzin təşkilatçılığı ilə keçirilən bu möhtəşəm tədbir dünyamıza sülh, əmin-amanlıq, sağlam gələcək üçün çağırışlar etdi.***

Prezident İlham Əliyevin forumdakı çıxışı dünya xalqlarına, region əhalsinə sülh çağırışları ilə zəngin idi. Cənab Prezident geniş və proqram xarakterli nitqində II Qarabağ müharibəsinin region və dünya əhalisi üçün təsirlərini xüsusi olaraq vurğuladı. Prezidentimizin dediyi kimi, bu münaqişənin həlli hansısa həmsədrlər, təşkilatların deyil, yalnız Azərbaycan xalqı, Azərbaycan Ordusunun əzmi, dövlətlə xalq birliyinin sayəsində mümkün oldu. Münaqişənin həlli Cənubi Qafqazın gələcək perspektiv imkanlarını daha da genişləndirdi, sülh və sabitliyin dayanıqlılığını bərqərar etdi, regionda yeni ab-hava yaratdı.

Prezident İlham Əliyev öz çıxışı ilə böyük siyasətçi, ağıllı diplomat olduğunu bir daha sübut etdi.

Forumdakı çıxışlarda dünyadakı münaqişələrin sülh yolu ilə həlli, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ədalətli dünya nizamının formalaşdırılmasının vacibliyi qeyd olundu. Dövlətimizin başçısının dünyadakı hadisələrə, proseslərə qlobal böhran və problemlərə yanaşma tərzi Azərbaycanın nə qədər sülhpərvər siyasət yürütdüyünü bir daha ortaya qoydu. Ümumiyyətlə, Prezident İlham Əliyevin forumda səsləndirdiyi fikirlər, sadəcə ölkəmiz üçün deyil, bütün region və onun gələcək inkişafı üçün yol xəritəsi hesab edilə bilər. Hesab edirəm ki, regionumuzun inkişafı və tərəqqisi üçün bütün dövlətlər Azərbaycan Prezidentinin çağırışlarını dəstəkləməli, bu çağırışların daha geniş miqyasda reallaşmasına töhfələrini verməlidirlər.

Bu gün Qarabağ bölgəsində həyata keçirilən yenidənqurma və bərpa işləri Azərbaycanın qurub-yaratmaq, sevgi, barış niyyətlərinin açıq göstəricisidir. Münaqişə həll olunduqdan və əraziyə bütün dünya mediasının, sadə vətəndaşların qapıları açıldıqdan sonra hər kəsə açıq-aşkar bəyan oldu ki, Ermənistan qəsbkarlarının məqsədi konkret işğal idi. İşğal müddətində Qarabağda bir dənə də olsa ağac belə əkilməyib, əksinə, vəhşicəsinə davranışlar, insani dəyərlərə olan hörmətsizlik, vandallıq faktları baş alıb getmişdir. Bütün bunların əksinə olaraq, cəmi iki il ərzində Azərbaycan dövləti Qarabağı, sözün əsl mənasında, cənnətə çevirməkdədir. Yeni yaradılan infrastrukturlar, eksklüziv yol qovşaqları, mədəni layihələr, smart texnologiyaların uğurlu tətbiqi və digər faktlar bunun bariz göstəricisidir. Zəngəzur dəhlizinin yaxın zamanda açılması isə regional sülhün fundamenti rolunu oynayacaq.

Prezident İlham Əliyev xüsusi vurğuladı ki, regionda sülhün, sabitliyin bərqərar olması üçün Ermənistan tərəfi Azərbaycanın sülh səylərini dəstəkləməli, təxribat xarakterli addımlardan imtina etməlidir.

Dövlət başçımızın himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə ənənəvi olaraq Bakıda təşkil olunan Qlobal Bakı Forumunda dünyanın üzləşdiyi problemlərə dair aparılan müzakirələr bu forumun qlobal səviyyəli məsələlərin həlli üçün ən yüksək səviyyəli əməkdaşlıq platformasına çevrildiyini bir daha sübut etdi.

***Rafiq NOVRUZOV,***
***Bakı Slavyan Universitetinin prorektoru, professor***

Xalq qəzeti .- 2022.- 22 iyun.- S.11.